**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ BULLİNQ HALLARININ ARADAN QALDIRILMASI ÜZRƏ İŞİN TƏŞKİLİ

İxtisas: 5804.01 – "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə"

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Günay Hümbət qızı Məmmədzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2026**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqogika elmləri doktoru, professor
**İntiqam Hilal oğlu Cəbrayılov**

Rəsmi opponentlər: pedaqogika elmləri doktoru, professor
**Hikmət Əbdül oğlu Əlizadə**

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Emiliya Rafiq qızı Hüseynova**

pedaqogika üzrə fəlsəfə doktoru
**Ruhiyyə Zahid qızı Mehdiyeva**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: ____________________ fizika-riyaziyyat elmləri doktoru, professor
**Hamlet Abdulla oğlu İsayev**

Dissertasiya şurasının elmi katibi: ____________________ pedaqogika üzrə fəlsəfə doktoru
**Gülbəniz Vaqif qızı Sultanova**

Elmi seminarın sədri: ____________________ pedaqogika elmləri doktoru, professor
**Fərahim Balakişi oğlu Sadıqov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dövrdə ümumtəhsil məktəblərində sosial münasibətlərin mürəkkəbləşməsi, informasiya mühitinin genişlənməsi, ailə institutunda baş verən transformasiyalar və uşaqların psixososial inkişaf dinamikasında müşahidə olunan dəyişikliklər bullinq problemini xüsusi pedaqoji müzakirə predmetinə çevirib. Bullinq artıq təkcə şagirdlər arasında təsadüfi qarşıdurma və ya məhdud münaqişə forması kimi deyil, sistemli şəkildə təkrarlanan, psixoloji, fiziki, sosial və ya kiber müstəvidə zərərverici davranış modeli kimi qiymətləndirilir. Bu fenomen həm təhsilalanların psixoloji sağlamlığına, həm akademik nailiyyətlərinə, həm də məktəb mühitində pedaqoji münasibətlər sisteminə ciddi təsir göstərir.

Son illərdə aparılan yerli və beynəlxalq tədqiqatlar göstərir ki, bullinq halları pedaqoji nəzarətin zəiflədiyi, məktəbə adaptasiya proseslərinin natamam olduğu, sinifdaxili münasibətlərin düzgün tənzimlənmədiyi, müəllim–şagird–valideyn əməkdaşlığının səmərəsiz qaldığı hallarda daha çox müşahidə edilir. BMT-nin Uşaq Hüquqları Komitəsinin hesabatlarında, UNESCO və UNICEF-in sənədlərində qeyd olunur ki, bullinq şagirdlərin sosiallaşma prosesini zədələyir, özünəinamı azaldır, təhsildən yayınma və depressiv pozuntular yaradır, zorakılıq hallarını gələcək yaş mərhələlərinə daşıyır.

Azərbaycan təhsil sistemində aparılan kurikulum islahatları, məktəbdaxili idarəetmənin təkmilləşdirilməsi, inklüziv və təhlükəsiz təhsil mühitinin yaradılması istiqamətində qəbul edilən dövlət sənədləri bullinqlə mübarizə məsələsini aktuallaşdırır. Bununla belə, bullinqin profilaktikası üzrə vahid metodoloji yanaşmaların olmaması, müəllimlərin pedaqoji psixoloji hazırlığının qeyri-bərabərliyi, sosial-pedaqoji xidmətlərin məhdudluğu, valideyn icmalarının prosesə zəif inteqrasiyası mövcud vəziyyəti daha da kəskinləşdirir.

Məktəblərdə müşahidə olunan fiziki təzyiq, psixoloji təhqir, sosial təcrid, ləqəbləndirmə, kiberhücumlar, qruplaşmalar, sosial iyerarxiya amilləri və aqressiv dominantlıq modelləri göstərir ki, bullinqin yalnız davranış problemi kimi deyil, sistemli pedaqoji problem kimi öyrənilməsi zəruridir. Tədqiqatlar göstərir ki, bullinqə

məruz qalan şagirdlərdə məktəbdən yayınma halları artır, akademik göstəricilər aşağı düşür, özünü izolyasiya və emosional stabillik pozulur, uzunmüddətli sosiallaşma çətinlikləri yaranır. Buller olan şagirdlər isə gələcəkdə deviant davranışlara, sosial aqressiyaya və cinayət yönümlü fəaliyyətə daha çox meyilli olurlar.

Mövzunun aktuallığını şərtləndirən digər mühüm amil rəqəmsal mühitdə zorakılığın artmasıdır. İnformasiya texnologiyalarının nəzarətsiz istifadəsi, sosial şəbəkələrin şagirdlər arasında intensiv tətbiqi kiberbullinq risklərini gücləndirir. Bu isə psixoloji travma ilə yanaşı, real məktəb münasibətlərinə də sirayət edir. Kiberbullinqi aşkarlamaq çətinləşir, onun nəticələri isə daha geniş auditoriyaya yayılır.

Psixopedaqoji və sosial-pedaqoji tədqiqatlar sübut edir ki, bullinq halları təkcə fərdi psixoloji xüsusiyyətlərlə deyil, sinifdaxili mikroiqlim, müəllimlərin münasibət strategiyaları, məktəbin idarəetmə strukturu, şagird özünüidarəetmə modelləri və pedaqoji resursların işləkliyi ilə sıx bağlıdır. Bu mənada bullinqə qarşı mübarizə yalnız qadağa və inzibati müdaxilə ilə deyil, sistemli maarifləndirici fəaliyyət, sosial-emosional təlim, tolerantlıq və empatiya bacarıqlarının formalaşdırılması, inklüziv münasibətlərin tənzimlənməsi ilə həll oluna bilər.

Dünya təcrübəsi göstərir ki, məktəb miqyasında kompleks psixoloji-pedaqoji proqramlar (Olveus modeli, KiVa proqramı, "Safe School" yanaşması və s.) bullinq risklərini əhəmiyyətli dərəcədə azaldır. Bu proqramların əsas dayağını multidissiplinar yanaşma, müəllim hazırlığı, valideynlərin inteqrasiyası və şagird təşəbbüsləri təşkil edir. Azərbaycan reallığında bu təcrübələrin lokallaşdırılması, təhlili və uyğunlaşdırılması elmi əsaslandırılmış pedaqoji tədqiqat tələb edir.

Bütün deyilənlər "Ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılması üzrə işin təşkili" mövzusunu tədqiqat baxımından zəruri və elmi-nəzəri, praktik və sosial baxımdan aktual edir. Mövzunun həm pedaqoji idarəetmə, həm sosial psixologiya, həm məktəbdaxili münasibətlər, həm də təlim-tərbiyə prosesində təhlükəsizlik kontekstində araşdırılması elmi yeniliyə, yeni yanaşmalara və tətbiqi nəticələrə ehtiyac yaradır.

Təhsil prosesində bullinq halları və onların aradan qaldırılması məsələləri pedaqoji və psixoloji tədqiqatların diqqət mərkəzində olmuşdur. Problemin nəzəri əsasları D. Olveus, S. Hinduja, J. Paçin, E.M. Levinson, A. Koloroso, P. Smit kimi tədqiqatçıların əsərlərində sistemləşdirilmişdir. Onların işlərində bullinqin mahiyyəti, formaları, qurban və təcavüzkarın davranış xüsusiyyətləri, həmçinin profilaktika yolları elmi şəkildə izah edilmişdir.

Azərbaycan pedaqoji fikrində bu mövzuya son illərdə maraq artmış, C.Həsənova, C.Yəhyalı, A.Rəhimova, R.Mahmudov və başqalarının elmi əsərlərində bullinqin təhsil mühitində meydana çıxma səbəbləri, onun mənəvi-psixoloji və sosial nəticələri araşdırılmışdır.

Lakin mövcud ədəbiyyatın təhlili göstərir ki, ümumtəhsil məktəblərində bullinqin aradan qaldırılması məsələsi daha çox psixoloji və sosial aspektdə öyrənilmiş, pedaqoji baxımdan işin təşkili, müəllim və valideynlərin qarşılıqlı fəaliyyət mexanizmləri, preventiv proqramların tətbiqi məsələləri yetərincə işlənməmişdir.

Bu baxımdan, tədqiqat işi bullinqin pedaqoji əsaslarının öyrənilməsi, onun profilaktikasında məktəbin, müəllimin və ailənin rolunun müəyyənləşdirilməsi, habelə qarşısının alınması üzrə praktik təkliflərin hazırlanması ilə fərqlənir və aktual elmi-praktik əhəmiyyət kəsb edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti – ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılması prosesidir.

Tədqiqatın predmeti – ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılmasının imkan və yollarıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılması üzrə işin məzmununu formalaşdırmaq, problem baxımından işin təşkili formalarını, yollarını və sistemini müəyyənləşdirməkdir.

Tədqiqatın vəzifələri. Tədqiqatın obyektinə, predmetinə, məqsəd və fərziyyəsinə əsasən, aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- bullinq anlayışının mahiyyətinin araşdırılması, psixo-pedaqoji əsasının müəyyənləşdirilməsi və onun yaranmasına təsir edən amillərin tədqiqi;

- problem baxımından humanitar istiqamətli proqram və dərsliklərin, eləcə də elmi-metodik əsərlərin təhlili;

- bullinqin qarşısının alınmasında tərbiyənin tərkib hissələri və prinsiplərinin imkanları;

- ümumtəhsil məktəblərində bullinq hallarının mövcud vəziyyətinin öyrənilməsi, təhsilalanların bullinqə məruz qalma səviyyəsinin, təzahür formalarının və başvermə xüsusiyyətlərinin, bu prosesə təsir göstərən amillərin, məktəb mühitinin rolunun, eləcə də müxtəlif təhsil səviyyələri üzrə bullinqin təzahür xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

- bullinqin qarşısının alınmasında məktəb rəhbərliyi, pedaqoji, texniki heyət, valideynlər və şagirdlərin imkanlarının araşdırılması;

- bullinqlə mübarizə çərçivəsində lider şagirdlərin iştirakının pedaqoji imkanlarının müəyyən edilməsi;

- bullinqlə mübarizədə ibtidai, orta və tam orta təhsil səviyyələrində şagirdlərin yaş xüsusiyyətlərinə uyğun bullinqlə mübarizə üzrə pedaqoji profilaktika mexanizmlərinin müəyyənləşdirilməsi;

- pedaqoji eksperimentin təşkili, aparılması və nəticənin əldə edilməsi.

**Tədqiqat metodları.** Araşdırmalar zamanı aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir: nəzəri təhlil və tərkib, pedaqoji müşahidə, pedaqoji müsahibə, sənədlərin öyrənilməsi, riyazi-statistik metodlar, pedaqoji eksperiment.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Ümumi təhsil məktəblərində bullinq hallarının qarşısının alınması və aradan qaldırılması istiqamətində fəaliyyətin səmərəli təşkili məqsədilə məktəb rəhbərliyinin, pedaqoji və texniki heyətin, təhsilalanların və valideynlərin bullinqin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və müdaxilə mexanizmləri üzrə sistemli şəkildə maarifləndirilməsi əhəmiyyətli nəticələr verir.

2. Bullinq hallarının aradan qaldırılması işində tərbiyənin tərkib hissələri və prinsiplərinin imkanlarından ardıcıl və sistemli faydalandıqda uğurlu nəticələr əldə etmək mümkündür.

3. Liderlik xüsusiyyətinə malik şagirdlərin imkanlarından məqsədəuyğun istifadə ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılması işində mühüm rol oynayır.

4. Bullinqin qarşısının alınmasında və mübarizədə ibtidai, orta və tam orta məktəb yaş dövrlərinə uyğun bullinqlə mübarizə mexanizmlərinin hazırlanması xüsusi əhəmiyyətə malikdir.

5. Sosial Emosional Öyrənmə (SEÖ) proqramlarının imkanlarından səmərəli istifadə bullinq hallarının aradan qaldırılması işinə müsbət təsir göstərir.

**Tədqiqatın elmi yeniliyi** – ondan ibarətdir ki, ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılması üzrə işin sistemi yaradılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.**

Tədqiqatın nəzəri əhəmiyyəti. Tədqiqatla bağlı əldə olunan nəticələr pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcəkdir.

Tədqiqatın praktik əhəmiyyəti.

1. Tədqiqatda irəli sürülmüş ideyalar, elmi nəticələr ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılması üzrə işin təşkilində pedaqoji kollektivlərə öz köməyini göstərəcəkdir.

2. Əldə olunan elmi nəticələrdən pedaqogika və pedaqoji psixologiya sahəsində tədris resurslarının hazırlanmasında, bullinqin profilaktikasına yönəlmiş pedaqoji yanaşmaların təkmilləşdirilməsində və gələcək elmi araşdırmaların aparılmasında nəzəri-metodoloji mənbə kimi istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Təklif olunan iş sistemi Bakı şəhəri 113, 167 və 299 nömrəli tam orta məktəblərində tətbiq edilmişdir. Dissertasiyada nəzərdən keçirilən problemlə əlaqədar Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda məqalələr (o cümlədən 2 məqalə xaricdə) nəşr olunmuşdur. İddiaçı, həmçinin beynəlxalq və respublika elmi konfranslarında məruzələrlə çıxış etmiş, məruzələrin mətnləri (o cümlədən 5 konfrans materialı xaricdə) nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya girişdən, 8 paraqrafı özündə birləşdirən 3 fəsildən, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılması probleminin ümumpedaqoji məsələləri"** adlanan I fəsli 3 paraqrafı özündə birləşdirir. Fəslin ***"Bullinq anlayışının mahiyyəti"*** adlı 1-ci paraqrafında bullinq anlayışının elmi-nəzəri mahiyyəti, onun psixoloji və pedaqoji təzahür xüsusiyyətləri geniş şəkildə araşdırılmışdır. Fəsildə bu problemin dünya miqyasında aktuallığı, onun təhsil mühitinə, şagird şəxsiyyətinin formalaşmasına və məktəbdə sosial münasibətlər sisteminə təsiri müxtəlif tədqiqatların nəticələri əsasında təhlil olunmuşdur.

Müxtəlif ölkələrin elmi ədəbiyyatında bullinqin mahiyyətinə dair təqdim olunan nəzəri yanaşmalar ümumiləşdirilmiş, D. Olveus, P. Smit, S. Hinduja, J. Patçin, A. Koloroso, K.Riqbi, D.J.Pepler kimi alimlərin bullinqin strukturuna, formalarına dair fikirlərinə yer verilmişdir. Dünya məktəblərində aparılan tədqiqatların nəticələri əsasında şagirdlərin bullinqə məruz qalma göstəriciləri üzrə statistik məlumatlar təqdim edilmiş, bu problemin qlobal xarakter daşıdığı və hər bir ölkənin təhsil siyasətində xüsusi diqqət tələb etdiyi göstərilmişdir.

Fəsildə, aqressiya, zorakılıq və bullinq anlayışlarının oxşar və fərqli cəhətləri müqayisəli şəkildə təhlil olunaraq sərhədləri müəyyən edilmiş, bullinqin müntəzəm, məqsədyönlü və sosial əlaqələrdə təkrarlanan zorakı davranış forması olduğu vurğulanmışdır. Bullinqin aktiv/passiv, birbaşa/dolayı və açıq/gizli növləri, həmçinin sözlü, fiziki, sosial, cinsi, psixoloji, kiber və homofob formaları tədris mühitində nümunələrlə izah edilmişdir.

Bullinq prosesi başlanğıc, normallaşma, dağıdıcı, qaçış və ya izolyasiya mərhələləri üzrə izah olunmuş, onun spontan deyil, müəyyən sosial-psixoloji şəraitdə formalaşan proses olduğu göstərilmişdir.

Bullinqin yaranmasına səbəb olan amillər ailə (valideyn nəzarətinin zəifliyi, aqressiv tərbiyə), fərdi-psixoloji (özünəinamın aşağı olması, emosional qeyri-sabitlik, empati çatışmazlığı), sosial-mühit (məktəb iqlimi, müəllim-şagird münasibətləri), məktəbdənkənar (dost və küçə mühiti, sosial media), sosial-iqtisadi və gender, həmçinin rəqəmsal mühit faktorları üzrə qruplaşdırılmışdır.

Fəslin 1-ci paraqrafında məktəb mühitinin xüsusiyyətlərinin bullinqin formalaşmasındakı rolu müəyyənləşdirilmişdir. Demokratik münasibətlərin zəifliyi, müəllimlərin müşahidə və müdaxilə bacarıqlarının məhdudluğu, eləcə də sinifdaxili sosial iqlimin qeyri-bərabərliyi bullinqi gücləndirən əsas pedaqoji amillər kimi qiymətləndirilmişdir.

Beləliklə, I fəslin birinci paraqrafında bullinqin mahiyyətinə dair nəzəri əsaslar sistemləşdirilmiş, onun sosial-pedaqoji təbiəti, formaları və yaranma amilləri elmi şəkildə əsaslandırılmış, həmçinin məktəb mühitində bullinqin başvermə mexanizmləri və təsir edən faktorların qarşılıqlı əlaqəsi müəyyən edilmişdir.

I fəslin 2-ci paraqrafı ***"Humanitar istiqamətli dərsliklərin, təhsil proqramlarının (kurikulumların) və elmi-metodik ədəbiyyatın problem baxımından təhlili"*** adlanır. Paraqrafda tədris prosesinin məzmun komponentləri, dərsliklər, proqramlar və metodik vəsaitlər bullinq problemi baxımından təhlil olunmuşdur. Əsas məqsəd təhsil resurslarında şagirdlərdə tolerantlıq, əməkdaşlıq, empatiya və humanizm kimi sosial-emosional bacarıqları formalaşdıran elementlərin, həmçinin zorakılıq və aqressiv davranışın qarşısını almağa yönəlmiş komponentlərin mövcudluğunu müəyyənləşdirmək olmuşdur.

Təhlil göstərmişdir ki, humanitar fənlər – Azərbaycan dili, ədəbiyyat, həyat bilgisi, ingilis dili üzrə dərsliklərdə bullinq probleminin dolayı şəkildə işıqlandırıldığı hallar müşahidə olunur. Məsələn, bir çox ədəbi mətnlərdə humanizm, mərhəmət, başqasının hisslərinə hörmət kimi dəyərlər tərənnüm edilsə də, bu materiallar pedaqoji məqsədlə sistemləşdirilmir və bullinqin mahiyyəti, sosial nəticələri konkret nümunələrlə izah edilmir.

I fəslin 3-cü paraqrafı ***"Müxtəlif məktəb yaş dövrlərində bullinq halları və onun xüsusiyyətləri"*** adlandırılıb, bu bölmədə bullinq hadisələrinin yaş dövrləri üzrə xarakteri, motivləri və sosial-emosional nəticələri pedaqoji-psixoloji baxımdan təhlil olunmuşdur.

İbtidai siniflərdə bullinq adətən verbal və sosial xarakter daşıyan oyun və münasibət səviyyəsində özünü göstərir, aqressivlik impulsivdir; müəllimin empatik və ədalətli davranışı, sinifdə qarşılıqlı hörmət atmosferi bullinqin qarşısını almaqda əsas rol oynayır. Orta məktəb və yeniyetməlik dövründə bullinq daha

məqsədyönlü, sosial status və qrup təzyiqi ilə bağlı olur, kiberbullinq formaları genişlənir. Yuxarı siniflərdə isə bullinq gizli, sosial və psixoloji məzmun daşıyır; psixoloji dayanıqlıq, özünüidarəetmə və emosional zəka fərdi müqaviməti müəyyən edir.

Araşdırmalardan görünür ki, müəllim-şagird münasibətləri, valideyn nəzarəti və məktəb iqlimi kimi amillər bullinqin yaranması və qarşısının alınmasında mühüm rol oynayır. Müəllimin obyektiv mövqeyi, pozitiv sinif idarəetməsi, şagirdlərə emosional dəstək və sosial məsuliyyət aşılayan təlim üsulları məktəbdə sağlam münasibətlərin formalaşmasına şərait yaradır.

Fəslin sonunda aparılmış ümumiləşdirmə nəticəsində bullinqin yaş xüsusiyyətlərinə görə fərqli pedaqoji yanaşmalar tələb etdiyi, profilaktik fəaliyyətin sistemli və mərhələli şəkildə təşkil olunmasının vacibliyi elmi cəhətdən əsaslandırılmışdır.

Dissertasiyanın II fəsli **“Ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılması üzrə işin pedaqoji təşkilinin prinsipləri, imkan, forma və yolları”** adlanır Fəsildə tərbiyə prosesinin nəzəri əsasları ilə bullinqin qarşısının alınması istiqamətində həyata keçirilən praktik fəaliyyətlər arasında əlaqə qurulmuş, bu istiqamətdə müəllim, şagird və valideyn əməkdaşlığının əhəmiyyəti sistemli şəkildə izah edilmişdir.

Fəslin ***“Tərbiyənin tərkib hissələrinin ümumtəhsil məktəblərindəki bullinq halları ilə mübarizə imkanları”*** adlanan 1-ci paraqrafında ümumtəhsil məktəblərində bullinq hallarının qarşısının alınması və aradan qaldırılması üçün tərbiyənin müxtəlif növləri – əxlaqi, hüquqi, fiziki, ekoloji, əmək, milli-mənəvi və iqtisadi tərbiyənin bullinqlə mübarizədə pedaqoji imkanları araşdırılmışdır.

Tərbiyənin hər bir tərkib hissəsi şagirdlərin sosial-emosional inkişafına, davranış normalarının mənimsənilməsinə və məktəb mühitində müsbət ünsiyyətin qurulmasına xidmət edir.

Əxlaqi tərbiyə bullinqin profilaktikasında mühüm rol oynayaraq şagirdlərdə empatiya, ədalət və məsuliyyət hisslərinin formalaşmasına şərait yaradır və aqressiv davranışların azalmasını təmin edir. Hüquq tərbiyəsi şagirdlərin hüquq və vəzifələrini dərk etməsinə, sosial və qanuni normalara uyğun davranmasına imkan verir. Fiziki və əmək tərbiyəsi əməkdaşlıq, kollektiv fəaliyyət və aqressiyanın konstruktiv

yönləndirilməsini təşviq edir. Ekoloji və iqtisadi tərbiyə isə məsuliyyət, paylaşma və birgə fəaliyyət bacarıqlarını gücləndirərək sağlam sosial münasibətlərin formalaşmasına və bullinq hallarının azalmasına xidmət edir. Milli-mənəvi dəyərlərin tədrisi şagirdlərdə etik davranış və qarşılıqlı hörmətin inkişafını təmin edir.

II fəslin 2-ci paraqrafı ***"Tərbiyənin prinsiplərinin bullinq hallarında tətbiqi və tərbiyəvi imkanları"*** adlandırılmışdır. Tərbiyənin tərkib hissələrinin effektivliyi tərbiyə prinsiplərinin düzgün tətbiqi ilə birbaşa bağlıdır. Məsələn:

Nikbinlik prinsipi – şagirdlərin uğura inamını və davranışlarında müsbət nəticələrə ümidini artırır, buller və qurban münasibətlərində pozitiv davranış modelinin formalaşmasına kömək edir.

Yaş, cins və fərdi xüsusiyyətlərin nəzərə alınması prinsipi – yaş, fərdi və cinsi xüsusiyyətlərə uyğun pedaqoji təsir göstərərək bullinq davranışlarının qarşısının alınmasına imkan yaradır.

Tələblərdə vahidlik prinsipi müəllimlərin və məktəb rəhbərliyinin davranış və norma gözləntilərinin uyğunluğunu təmin edir, bu isə şagirdlər arasında ədalətsizliyin və ziddiyyətlərin qarşısını alır.

Sözlə əməlin vəhdəti prinsipi müəllimin nümunəvi davranışı vasitəsilə şagirdlərdə doğru və məsuliyyətli hərəkət modellərinin formalaşmasına təsir göstərir.

Məqsədyönlülük prinsipi hər bir pedaqoji fəaliyyətin hədəf və nəticə yönümlü aparılmasını təmin edir, bu da bullinq hallarının proaktiv qarşısının alınmasına xidmət edir.

Şəxsiyyətin kollektivdə və kollektiv vasitəsilə tərbiyəsi prinsipi şagirdlərin sosial bacarıqlarının və kollektivlə uyğunlaşma qabiliyyətinin inkişafına yardım edir.

Tərbiyədə hörmət və tələbkarlıq prinsipi şagirdlərin davranışlarına nəzarəti gücləndirir, sinif və məktəb nizam-intizamının qorunmasını təmin edir.

Tərbiyədə aşkarlıq prinsipi şagirdlər arasında davranış və nəticələr haqqında açıq müzakirələrin aparılmasını, problemlərin vaxtında aşkar edilməsini və müdaxilə imkanını artırır.

Tərbiyədə ardıcıllıq və sistemlilik prinsipi tərbiyəvi fəaliyyətin planlı, mərhələli və davamlı olmasını təmin edərək bullinq hallarının azalmasına şərait yaradır.

Əxlaqi və fərdi söhbətlər bullinqin profilaktikasında mühüm pedaqoji vasitə kimi çıxış edərək şagirdlərin davranışlarını dərk etməsinə, empatiya və sosial məsuliyyət hissinin formalaşmasına, habelə mənfi davranışların konstruktiv şəkildə korreksiyasına şərait yaradır. Bu metod şagirdin daxili motivasiyasını gücləndirdiyindən davranış dəyişikliklərinin davamlılığını təmin edir.

Beləliklə, tərbiyənin tərkib hissələri və prinsiplərinin sistemli tətbiqi, əxlaqi-fərdi söhbətlər ilə birləşdirildikdə, ümumtəhsil məktəblərində bullinq halları ilə mübarizə üçün kompleks və effektiv pedaqoji mexanizm formalaşdırır.

Fəslin 3-cü paraqrafı ***"Ümumtəhsil məktəblərində bullinq hallarının müəyyənləşdirilməsi, profilaktikası və aradan qaldırılması üzrə pedaqoji işin təşkili"*** olub bu paraqrafda bullinqin müəyyənləşdirilməsi, profilaktikası və aradan qaldırılması üzrə məktəbdə aparılan pedaqoji işin təşkili prinsipləri, mərhələləri və mexanizmləri konkretləşdirilmişdir. Məktəb mühitində preventiv fəaliyyətin planlaşdırılması, tədris və tərbiyə prosesində inteqrasiya olunmuş şəkildə həyata keçirilməsi zərurəti vurğulanmışdır.

Araşdırmalar göstərmişdir ki, bullinqin səmərəli şəkildə qarşısının alınması yalnız fərdi və sinif səviyyəsində deyil, həm də məktəb mühitinin bütün strukturlarında kompleks tədbirlərin həyata keçirilməsi ilə mümkündür.

1. Sinifdə əxlaq tərbiyəsinin düzgün qurulması və möhkəmləndirilməsi; şagirdlərin sosial davranış normalarının mənimsənilməsinə yönəlmiş sistemli fəaliyyətlərin təşkili.

2. Şagirdlərin kommunikasiya bacarıqlarının formalaşdırılması və inkişaf etdirilməsi vasitəsilə konfliktlərin konstruktiv həllinə və sosial bacarıqların gücləndirilməsinə şərait yaradılması.

3. Rollu oyunlar və situasiya modelləri tətbiq edilərək, şagirdlərə zorakılığa qarşı çıxmağı, "yox" deməyi və problemli situasiyalarda adekvat davranmağı öyrətmək.

4. Humanitar fənlərin imkanlarından istifadə edərək empatiya, etik və əxlaq anlayışlarının tədris proqramına inteqrasiyası.

5. Sosial-Emosional Öyrənmə metodlarının tətbiqi ilə şagirdlərin emosional intellektinin inkişaf etdirilməsi, qrup dinamikasına uyğun davranış bacarıqlarının artırılması.

6. Məktəbdə müsbət və dəstəkləyici psixososial mühitin yaradılması, sinif və məktəb iqliminin bullinqə qarşı dayanıqlı formalaşdırılması.

7. Məktəbdə bullinqə qarşı nizamnamənin hazırlanması və bu sənədin müəllim, şagird və valideynlər tərəfindən qəbul edilməsi.

8. Məktəbin pedaqoji və texniki heyətinin, müəllimlərin, məktəb rəhbərliyinin maarifləndirilməsi və tərbiyəvi tədbirlərdə fəal iştirakının təmin edilməsi.

9. Lider şagirdlərin hazırlanması və onların sinif daxilində müsbət nümunə kimi təşviqi.

10. Valideynlərin maarifləndirilməsi – ailə ilə məktəb əməkdaşlığının gücləndirilməsi və şagirdin davranışının monitorinqi üçün valideynlərin məlumatlandırılması.

11. Məktəblərdə məsləhət və dəstək xidmətlərinin yaradılması, şagirdlərə psixoloji yardım və sosial dəstək imkanlarının təmin edilməsi.

12. Monitorinq və diaqnostikanın aparılması – bullinq hallarının aşkarlanması, risk qruplarının müəyyən edilməsi və qarşısının alınması üçün sistemli fəaliyyət.

13. Yuxarı sinif şagirdlərinin dəstəyinin təşviqi, onların kiçik sinif şagirdlərinə pozitiv nümunə olması və zorakılıq hallarının azaldılmasına kömək etməsi.

14. Yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektorların məktəblərə dəvət olunması və bullinqlə mübarizə istiqamətində əməkdaşlığın təşkili.

15. Məktəb binası xaricində şagirdlərin təhlükəsizliyinin təmin edilməsi, məktəbdənkənar riskli situasiyaların minimuma endirilməsi.

16. Müəllim nəzarətinin gücləndirilməsi və şagirdlərin maarifləndirilməsi, onların bullinqin fəsadları barədə məlumatlandırılması.

Araşdırma nəticəsində müəyyən edilmişdir ki, bu tədbirlər sistemi həm proaktiv, həm də reaktiv yanaşmanı əhatə edir. Proaktiv tədbirlər – sinif və məktəb iqliminin formalaşdırılması, sosial-emosional bacarıqların inkişafı və maarifləndirmə; reaktiv tədbirlər isə – aşkarlanan bullinq hallarına müdaxilə, monitorinq və dəstək xidmətlərinin tətbiqi.

Beləliklə, dissertasiya müəllifi tərəfindən təqdim olunan

pedaqoji mexanizmlər və mübarizə yolları kompleks şəkildə sinif, məktəb və valideyn əməkdaşlığını birləşdirərək bullinq hallarının qarşısının alınmasını və azaldılmasını təmin edir.

Dissertasiyanın III fəsli "**Pedoqoji eksperimentin təşkili, aparılması və nəticələri"** adlanır. Fəsildə tədqiqatçı tərəfindən ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılması məqsədilə həyata keçirilən eksperimental işin mərhələləri, metodları və əldə olunan nəticələr sistemli şəkildə təqdim olunmuşdur.

Fəsil iki paraqrafdan ibarətdir. "***Eksperimentin təşkili"*** adlandırılan 1-ci paraqrafda əsas məqsəd Azərbaycan məktəblərində bulliq hallarının statsitik məlumatlarını əldə etmək və bunun əsasında məktəb mühitində bullinq hallarının azaldılması üçün müəllim, şagird və valideyn iştirakını nəzərə alan pedaqoji mexanizmlərin səmərəliliyini qiymətləndirmək olmuşdur.

Azərbaycan məktəblərində mövcud vəziyyətin öyrənilməsi məqsədi ilə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyindəki Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nəzdindəki 11 məktəbdə: regional təhsil idarələrindən Qazax-Tovuz, Quba-Xaçmaz, Şirvan-Salyan və Lənkəran-Astara Regional Təhsil İdairələri üzrə 4 məktəbdə, ümumilikdə 2385 şagird, 15 direktor, 15 müavin, 14 psixoloq, 127 müəllim arasında anket sorğu və müsahibə aparılmışdır.

Müsahibə zamanı məktəblərin bullinqlə mübarizə strategiyaları və profilaktik tədbirlərin effektivliyi dəyərləndirilmiş, valideynlərlə əməkdaşlıq səviyyəsi təhlil edilmiş, ailənin bullinq hallarındakı yeri müəyyən olunmuşdur. Respondentlərlə aparılan müsahibələrə əsasən fikirlər ümumiləşdirilmiş və aşağıdakı kimi sistemləşdirilmişdir:

**1. Ailə və sosial amillərin təsiri;**

- bullinq prosesinin iştirakçıları daha çox natamam ailələrin övladlarıdır;

- valideyn-övlad münasibətlərinin düzgün qurulmaması şagirdi buller və ya qurbana çevirə bilər;

- hər iki valideynin işləməsi övladın diqqətdən kənar qalmasına səbəb olur və bu da bullinq proseslərinə zəmin rolu oynayır;

- ataların uzunmüddətli əmək miqrasiyası onların ailədaxili sosial-nəzarət funksiyasını və emosional təsirini zəiflədir, xüsusilə də oğlan şagirdlərin tərbiyə prosesinə mənfi təsir göstərir;

- aztəminatlı ailələrin övladlarının məktəbdə adaptasiya çətinlikləri onları bullerlərin hədəfinə çevirə bilir;

- müəllim-valideyn münasibətlərinin pozulması tərbiyə prosesində effektiv nəticə əldə etməyə imkan vermir;

- müəllim-valideyn münasibətlərində müşahidə olunan problemlər və bəzi valideynlərin övladlarının qeyri-etik davranışlarını legitimləşdirməyə meyil göstərmələri tərbiyə işini zəiflədərək vahid tərbiyə təsirlərinin formalaşmasına mane olur ki, bu da sinifdə əxlaqi dəyərlərin mənimsənilməsinə təsirsiz ötüşmür.

-mənzil təminatı problemləri səbəbindən tez-tez yerdəyişmə yaşayan şagirdlər adaptasiya çətinlikləri ilə üzləşir, bu isə onların akademik göstəricilərinə və eyni zamanda sosial inteqrasiyalarına mənfi təsir göstərərək bullerlərin hədəfinə çevrilmə riskini artırır.

**2. Məktəb mühiti və pedaqoji amillər:**

- valideyn və şagirdlər arasında müəllim nüfuzunun zəifləməsi;
- məktəbdə psixoloq sayının azlığının işin effektivliyinə təsiri;
- yeni gələn şagirdlərin adaptasiya problemləri;
- davamiyyət üçün limitin olmaması;
- şagirdlərin qeyri-etik ifadələrə meyilli olması;
- son dövrlər şagirdlər arasında qeyri-heteroseksual oriyentasiyaya malik fərdlərin sayında (və ya sayın ictimailəşməsində) artım müşahidə olunması.
- yeniyetməlik dövrünün gətirdiyi çətinliklərdən doğan problemlər;
- cəzasızlıq mühitinin şagirdlərdə yaratdığı rahatlıq və bundan yaranan mənfi halların artması.

Eksperimentin təşkili mərhələsində:

- Eksperimentin obyekti və subyekti müəyyən edilmişdir – obyekt olaraq ümumtəhsil məktəbinin sinif kollektivləri, subyekt olaraq isə şagirdlər, müəllimlər və valideynlər seçilmişdir.
- Eksperiment üçün kontrol və təcrübə qrupları təşkil edilmiş, hər qrupda şagirdlərin yaş və cins xüsusiyyətləri nəzərə alınmışdır.
- Sinifdə və məktəbdə maarifləndirici tədbirlər, rollu oyunlar, sosial-emosional öyrənmə və digər interaktiv metodlar tətbiq olunmuşdur.

2385 şagirdə anket sorğu təqdim olunmuş və alınan cavablar əsasında müəyyən edilmişdir ki, fiziki bullinqə məruz qalma

göstəricisi ən yüksək 4-cü siniflərdə (7.04%), ən aşağı isə 10-cu siniflərdə (1.5%) qeydə alınmış, bu növ bullinqin oğlanlar arasında daha geniş yayıldığı müəyyən edilmişdir. Sözlü bullinqə ən çox 11-ci siniflər (11.3%) məruz qalmış və burada da oğlan şagirdlərin faizi üstünlük təşkil edir. Kiberbullinqə daha çox 9 və 11-ci sinif şagirdlərinin, xüsusilə qızların məruz qaldığı müşahidə olunmuşdur. Sosial bullinq üzrə qızların göstəricisi (2.60%) oğlanlardan (1.84%) yüksək olmuş, ən yüksək göstərici 7-ci siniflərdə (6.81%), ən aşağı isə 11-ci siniflərdə (0.7%) qeydə alınmışdır. Psixoloji bullinq üzrə göstəricilər oğlanlarda (3.27%) qızlara (2.94%) nisbətən cüzi üstünlük təşkil etmiş, bu növ bullinqin ən yüksək səviyyəsi 10-cu siniflərdə (8.91%), ən aşağı səviyyəsi isə 11-ci siniflərdə (3.97%) müəyyən edilmişdir.

Tədqiqat zamanı əldə edilən məlumatların təhlili göstərmişdir:

1. Azərbaycan məktəblərində şagirdlər daha çox sözlü bullinqə məruz qalırlar. Psixoloji bullinq isə bu göstəricidə ikincidir;

2. Bullinq halları daha çox yeniyetməlik dövrünə təsadüf edir. Səbəb liderlik uğrunda mübarizə, yaş dövrünün sosial-emosional xüsusiyyətləridir;

3.Oğlanlar daha çox fiziki, sözlü, psixoloji bullinqə, qızlar isə sosial və kiberbullinqə məruz qalırlar;

4. 2385 şagirddən 24.2%-i bullinqin müxtəlif növlərinə məruz qalır;

5. Bullinqə məruz qalma statistikasına əsasən sözlü bullinqə ən çox 11-ci sinif, fiziki bullinqə həm 4, həm 8-ci sinif, kiberbullinqə 11-ci sinif, sosial bullinqə 7-ci sinif, psixoloji bullinqə isə daha çox 10-cu sinif şagirdləri məruz qalmışlar.

Anketin 2-ci sualının nəticələrinə əsasən şagirdlərin əhəmiyyətli hissəsi görünüş amilinə görə bullinqə məruz qalır. Anketin 3-cü sualı bullinq risk qrupunun müəyyənləşdirilməsinə yönəldilmiş və nəticələr akademik göstəricilər, sosial status və davranış xüsusiyyətlərinin bullinqə məruz qalma ilə əlaqəli olduğunu ortaya qoymuşdur. Tədqiqat göstərir ki, həm yüksək akademik nailiyyətlərə malik olub müəllimlərlə münasibətlərini nümayiş etdirən, həm də akademik bacarıqları zəif olan şagirdlər bullinq baxımından risk qrupuna daxildir. Anketin 4-cü sualının nəticələri şagirdlərin əksəriyyətinin

aktiv şahid mövqeyi tutduğunu və bullinq halları barədə müəllim və məktəb rəhbərliyinə məlumat verməyə üstünlük verdiklərini göstərmişdir. 5-ci sual üzrə cavablar respondentlərin mühüm hissəsinin qurbanlara qarşı empatik münasibət nümayiş etdirdiyini təsdiqləmişdir. 6-cı sualın nəticələrinə əsasən şagirdlərin böyük qismi ailə vəziyyətindən asılı olmayaraq bullinqi qəbuledilməz hesab edir. 7-ci sual üzrə şagirdlər bullinqin qarşısının alınmasında valideyn məsuliyyətini və bullerin cəzalandırılmasını əsas müdaxilə vasitəsi kimi qiymətləndirmişlər. 8 və 9-cu sualların təhlili bullinq hallarının əsasən sanitar qovşaqlarda, məktəbin arxa hissəsində və tənəffüs zamanı baş verdiyini ortaya qoymuşdur. Nəticələr cinsi bullinqə məruz qalan şagirdlərin əsasən qorxu səbəbindən susduğunu, şagirdlərin bir hissəsinin isə bullerlərin qurbanlara qarşı laqeyd münasibət göstərdiyini düşündüyünü göstərmişdir. 12-ci sual bullinq davranışının bəzi şagirdlər tərəfindən liderlik vasitəsi kimi dərk edildiyini, 13-cü sual isə respondentlərin əhəmiyyətli hissəsinin bullinqdə müəllim amilini həlledici saymadığını müəyyən etmişdir. 14-cü sualın nəticələri şagirdlərin bullinq barədə məlumatlılıq səviyyəsinin orta səviyyədə olduğunu göstərmişdir.

III fəslin 2-ci paraqrafı ***“Eksperimentin aparılması və həyata keçirilməsi”*** adlanır. Paraqrafda məktəb mühitində bullinq hallarının qarşısının alınması üçün pedaqoji tədbirlərin sınaqdan keçirilməsi nəzərdə tutulmuşdur. Əsas məqsəd:

1. Tərbiyənin növ və prinsiplərinin imkanlarından istifadə edərək şagirdlərin emosional-intellektual inkişafına təsir göstərərək bullinq hallarını minimuma endirmək;
2. Müəllim, şagird və valideyn əməkdaşlığını təmin edərək bullinqin profilaktikasını təşkil etmək;
3. Tətbiq olunan pedaqoji metodların bullinqlə mübarizədə təsirlərini müəyyənləşdirmək olmuşdur.

Eksperimentin həyata keçirilməsi üçün iştirakçılar eksperimental və kontrol qruplar olaraq iki yerə ayrılmış tədqiqatçı tərəfindən hazırlanan tədbirlər sistemli şəkildə həyata keçirilmişdir:

- Sinifdə əxlaq tərbiyəsi və kommunikasiya bacarıqları üzrə fəaliyyətlər aparılmış, şagirdlərin bir-birinə qarşı hörmət və əməkdaşlıq davranışları müşahidə edilmişdir.

- Rollu oyunlar və situasiya modelləri vasitəsilə şagirdlərə bullinq hallarında necə davranmalı olduqları öyrədilmişdir.

- Valideynlərlə maarifləndirmə tədbirləri keçirilmiş, evdə də uşaqlara uyğun dəstək vermələri təşviq edilmişdir.

- Məktəb daxilində müsbət mühitin yaradılması və dəstəkləyici psixososial iqlimin formalaşdırılması təmin edilmişdir.

- Humanitar fənlərin imkanlarından istifadə, sosial-emosional öyrənmə metodlarının tətbiqi və bullinqə qarşı nizamnamənin icrası sistemli şəkildə həyata keçirilmişdir.

- Monitorinq və diaqnostika vasitəsilə bullinq hallarının dinamikası izlənmiş, eksperimentin təsiri qiymətləndirilmişdir.

Eksperiment nəticəsində müəyyən edilmişdir ki:

1. Təcrübə qruplarında bullinq hallarının sayı azalmış, şagirdlərin qarşılıqlı hörmət və empatiya səviyyəsi yüksəlmişdir.

2. Rollu oyunlar, sosial-emosional öyrənmə və maarifləndirmə tədbirləri şagirdlərin zorakılığa qarşı davranışlarını gücləndirmişdir.

3. Valideyn və məktəb əməkdaşlığı bullinq halları ilə mübarizədə effektiv mexanizm olmuşdur.

4. Məktəb daxilində yaradılmış dəstəkləyici mühit və lider şagirdlərin rolu prosesin səmərəliliyini artırmışdır.

Yoxlayıcı mərhələdə bullinqlə mübarizə strategiyasının tətbiqinin nəticəsi olaraq eksperimental qruplarda bullinq faizlərinin 13.6 faiz azaldığı müşahidə olunmuşdur.

Beləliklə, eksperiment göstərmişdir ki, sinif və məktəb səviyyəsində planlı və sistemli pedaqoji müdaxilələr bullinq hallarının qarşısının alınmasında effektiv vasitədir.

Tədqiqat nəticəsində əldə edilmiş əsas **nəticə**lərin bir hissəsi aşağıda təqdim olunur:

1. Bullinq məktəbdə təhsil, təlim və tərbiyə prosesinin tamlığını pozan, şagird şəxsiyyətinə mənfi təsir edən davranış forması olub, şagirdin fiziki, psixoloji və sosial inkişafına neqativ təsir göstərir, məktəbdən yayınma hallarını artıraraq şagirdlərin akademik göstəricilərinin zəifləməsinə gətirib çıxarır.

2. Hər zorakılıq halı bullinq deyil, lakin hər bullinq halı zorakılıqdır.

3. Bir zorakılıq halının bullinq sayılması üçün onun

məqsədyönlü, davamlı, təkrarlanan xarakter daşıması və tərəflər arasında güc disbalansının olması vacibdir.

4. Bullinqin sözlü, sosial, psixoloji, fiziki, cinsi, homofob və kibberbullinq kimi müxtəlif növləri olub, şagirdlərin psixi və fiziki sağlamlığına mənfi təsir göstərərək (xüsusilə də kiberbullinq) onlarda özünüqiymətləndirmə, özünəhörməti zəiflədərək depressiv hallar və sosial təcridin formalaşmasına, eləcə də intihar düşüncələrinin yaranmasına səbəb olur.

5. Ümumtəhsil məktəblərində bullinqin müxtəlif növlərinə məruzqalma göstəriciləri siniflər üzrə fərqlənir və ayrı-ayrı növlər müəyyən məktəb yaş dövrlərində daha intensiv təzahür edir. Belə ki, kiçik məktəb yaş dövründə fiziki, orta məktəb yaş dövründə verbal, sosial və psixoloji, böyük məktəb yaş dövründə isə kiberbullinq hallarına daha çox rast gəlinir.

6. Məktəb mühitinin sosial-psixoloji iqlimi bullinq hallarının formalaşmasına və intensivliyinə birbaşa təsir göstərir. Müəllim nüfuzunun gücləndirilməsi, müəllim-şagird münasibətlərində etibar və qarşılıqlı hörmətin təmin edilməsi, həmyaşıdlar arasında münasibətlərin sağlam qurulmasının təmini, sosial iyerarxiyanın balanslaşdırılması və müsbət məktəb mühitinin yaradılması bullinq riskinin azalmasına kömək edir.

7. Təhsilalanların sosial-emosional bacarıqlarının inkişafına yönəlmiş fəaliyyətlər (müsbət rol modellərin təqdim olunması, sağlam həmyaşıd münasibətlərinin təşviqi, SEÖ proqramları, yaşa uyğun pedaqoji müdaxilələr, sosial çarx və filmlərin nümayişi, əxlaqi söhbətlər və yaşa uyğun müdaxilələr) empatiya, ünsiyyət və əməkdaşlıq bacarıqlarını gücləndirərək bullinq riskinin azalmasına şərait yaradır.

8. Hər təhsil səviyyəsi üçün müəyyənləşdirilmiş bullinqlə mübarizə metodları (restorativ yanaşmalar, kollektiv fəaliyyət) şagirdlərin sosial bacarıqlarının, ünsiyyət mədəniyyətinin, empatiya bacarıqlarının inkişafına müsbət təsir göstərir və məktəbdə sağlam sosial-psixoloji mühit yaradaraq bullinq hallarının azalmasına səbəb olur.

9. Məktəblərdə bullinqin qarşısını almaq üçün daimi diaqnostika və qiymətləndirmənin aparılması, şagird davranışlarının sistemli müşahidə olunması, bullinq halları ilə bağlı anonim məlumat

vermək üçün etibarlı və təhlükəsiz sistemin yaradılması, psixoloji dəstək və maarifləndirmə tədbirləri, həmçinin sistemli, ardıcıl, məqsədyönlü və humanist yanaşma ümumtəhsil məktəblərində bullinq hallarının azalmasına, məktəb mühitinin müsbətə doğru dəyişməsinə, şagirdlərin sosial-emosional inkişafına və təhlükəsiz təhsil mühitinin yaradılmasına zəmin yaradır.

10. Yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektorların bullinqlə mübarizə istiqamətində məktəblərə dəvət olunaraq maarifləndirici seminarlar təşkil etməsi, xüsusilə orta məktəb və böyük məktəb yaş dövrləri şagirdlərinin bu cür seminarlara cəlb olunması davranışlarının hüquqi müstəvidəki məsuliyyətini anlamağa kömək edəcək.

"Ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılması üzrə işin təşkili" adlı dissertasiyanın ərsəyə gətirilməsi zamanı əldə olunan empirik və nəzəri nəticələr əsasında müəyyən olunmuşdur ki, ümumtəhsil məktəblərində bullinq hallarının qarşının alınması və aradan qaldırılması yalnız diaqnostik və təhlil mərhələri ilə mümkün deyil. Bu kontekstdə məktəb mühiti, pedaqoji və texniki heyətin hazırlığı, məktəblə valideynlərin birgə əməkdaşlığının təmin olunması, şagirdlərin sosial bacarıqlarının artırılması kimi komponentlər inteqrativ şəkildə nəzərə alınaraq tədbirlər planı hazırlanmalıdır. Dissertasiyanın təkliflər hissəsi dissertasiya müddətində üzə çıxarılan problemlərə əsaslanaraq, bullinqin aradan qaldırılması üzrə konkret və praktik tədbirləri təqdim edir. Bu təkliflər məktəb idarəçiliyi, müəllimlər eyni zamanda şagirdlər üçün nəzərdə tutularaq sistemli şəkildə təşkil edilmişdir.

Təkliflərin hazırlanmasına D.Olveusun "Olweus bullying prevention program – Olveus Bullinqin Qarşısının Alınması Proqramı", Finlandiyanın "KiVa" – Məktəbdə bullinqin qarşısının alınması, "Safe school – Təhlükəsiz məktəb" (ABŞ və Kanadada Olveusun proqramının adaptasiyası), "Restorativ practises – Restorativ yanaşmalar" (ABŞ və Böyük Britaniya", "Cyberbullying prevention programs – Kiberbullinqə qarşı müdaxilə proqramı" (ABŞ, Avstraliya, Avropa) adlı bullinqlə mübarizə proqramları əsasında dünya təcrübəsindən istifadə edərək Azərbaycan mühitinə uyğun təkliflər hazırlanmışdır.

Tədqiqatla bağlı irəli sürülən **təkliflər** bunlardır:

1. Bullinqə qarşı mübarizədə məktəbdə sıfır dözümlülük siyasətinin tətbiq olunması vacibdir: Bu siyasət şagirdlərə bullinqin qəbul edilməz olduğunu və bullerlərə qarşı ciddi addımların atılacağını bildirir.

2. Məktəblərdə bullinqə qarşı nizamnamənin hazırlanması, bullinqin aşkarlanması və mübarizə kontekstində müəllimlərin maarifləndirilməsi işinin genişləndirilməsi (xüsusilə rayon və kənd məktəblərində), bu məqsədlə müxtəlif seminar və təlimlərin təşkili vacibdir.

3. Bullinqlə mübarizədə müsbət nəticə əldə etmək üçün maarifləndirmə işlərinin yalnız məktəbin pedaqoji heyəti ilə deyil, həmçinin texniki heyəti və valideynlər arasında da aparılması daha müsbət və dayanıqlı nəticənin əldə olunmasına təsir götərəcək.

4. Bullinqlə mübarizə məqsədilə məktəblərdə psixoloq ştatının artırılması vacibdir.

5. Məktəbdə nəzarətin artırılması məqsədilə növbətçi müəllimlərin təyin edilməsi müsbət nəticə verəcək: Şagird davranışlarının daimi izlənilməsi üçün növbətçi müəllimlər təyin olunması, xüsusilə tənəffüs zamanı dəhlizlərdə şagirdlərin davranışlarına nəzarət olunması məqsədəuyğundur.

6. Məktəbdə inkluziv mühitin yaradılması: Sosial, iqtisadi, əqli və fiziki fərqlilikləri olan şagirdlərə fərq qoyulmadan bərabər təhsil almalarını təmin etmək.

7. Ümumtəhsil məktəblərində davamlı olaraq bullinqin diaqnostika və monitorinqinin aparılması vacibdir.

8. Bullinqlə mübarizə məqsədilə şagirdlərə hüquq və vəzifələrinin öyrədilməsi, maarifləndirici seminar və təlimlərin təşkil edilməsi vacib olub, psixoloji dəstək və məsləhət xidmətlərinin təşkil olunması və bu istiqamətdə məktəbdə anonim şikayət sistemlərinin yaradılması ("etimad qutuları"nın qurulması) məqsədəuyğundur.

9. Müəllim və şagird münasibətlərinin qarşılıqlı etimad üzərində qurulması vacibdir: şagirdlərin məktəbdə etibar etdiyi, problemlərini deyə biləcəyi müəllimlərin olması bulliqin ilkin diaqnostikası və qarşısının alınmasında mühüm rol oynayır.

10. Bullinqlə mübarizədə lider xüsusiyyətlərə malik olan şagirdlərin komunikasiya bacarıqlarından məqsədyönlü şəkildə istifadə edilməsi və yuxarı sinif şagirdlərinin dəstəyinin təşviq edilməsi məqsədəuyğundur.

11. Sosial Emosional Öyrənmə proqramları vasitəsilə şagirdlərdə özününəzarətin gücləndirilməsi, digər şagirdlərlə münasibətlərin düzgün tənzimlənilməsi, emosional hallara qarşı düzgün davranış nümayiş etdirilməsini təmin etmək məqsədəuyğundur.

12. Xüsusilə də humanitar istiqamətli fənlərin imkanlarından istifadə edərək, şagirdlər arasında əməkdaşlıq mühitinin təmin olunması, emosional bacarıqlarının və empatiya hissinin inkişafı üçün məktəbdaxili və sinifdaxili qrup oyunları, rollu oyunlar təşkil olunması məqsədəuyğundur.

13. Hər yaş dövrünə aid film və animasiyalar vasitəsilə bullinqlə mübarizə aparılması daha effektiv və məqsədəuyğundur.

14. Rəqəmsal mühitin mənfi xüsusiyyətlərindən qorunmaq üçün şagirdlərdə düzgün rəqəmsal bacarıqların formalaşdırılmasını təmin etmək vacibdir.

15. Bullinqlə mübarizə çərçivəsində Yetkinlik yaşına çatmayanlarla iş üzrə inspektorların məktəblərə dəvət edilməsi məqsədəuyğundur.

16. Ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılması üzrə işin təşkili məqsədilə valideynlərin dəstəyindən istifadə olunması vacib olub, bu istiqamətdə onların maarifləndirilməsi (bullinqin tanınması, qarşısının alınması və övladlarının sosial-emosional inkişafı haqqında təlimlərə cəlb edilməsi), məktəb və ailə arasında əməkdaşlığın gücləndirilməsi, valideynlər üçün məsləhət xidmətlərinin, rəqəmsal təhlükəsizlik təlimlərinin təşkil edilməsi məqsədəuyğundur:

17. Bullinqlə mübarizədə ailədaxili münasibətlərin gücləndirilməsi, uşaqlarla açıq və səmimi ünsiyyətin qurulması vacibdir:

18. Ümumtəhsil məktəblərində bullinqlə mübarizə məqsədilə hər kəsin (rəhbərlik, pedaqoji, texniki heyət və valideynlər) eyni hədəfə cəmlənməsi, bu məqsədlə eyni plan üzrə hərəkət etməsi vacibdir.

19. Milli “Anti bullinq” proqramının hazırlanması məqsədəuyğundur; Dünya təcrübəsinə əsaslanaraq Azərbaycan

məktəbləri üçün mərkəzləşdirilmiş onlayn platforma hazırlamaq, bu platformada bullinq, onun mahiyyəti, növləri, şagirdlərə təsiri, onunla mübarizə yolları haqqında məlumatlar yerləşdirmək, bullinqlə mübarizə məqsədilə maarifləndirmə materialları təqdim etmək (hər yaş dövrünə uyğun proqram və video materiallar hazırlamaq), analitik hesabatlar vermək, bununla yanaşı dərslik və təlimatların hazırlanması vacibdir.

20. Pilot layihələrin hazırlanması məqsədəuyğundur. Bakı və regionlarda bullinqə qarşı xüsusi pilot proqramların hazırlanması və sonradan bütün ölkə məktəblərinə tətbiqi.

21. Bullinqlə mübarizə məqsədilə "Şagirdlərin rəqəmsal mühitdə təhlükəsizliyinin təmini" proqramının həyata keçirilməsi məqsədəuyğundur. Bu məqsədlə şagirdlərə sosial media və internetdən istifadə ilə bağlı maarifləndirmə proqramlarının həyata keçirilməsi təmin olunsun.

22. Məktəblərdə bullinqlə mübarizə məqsədilə tərkibində müəllim, psixoloq, sosial pedaqoq və şagird nümayəndələrin olduğu bullinqə qarşı idarəetmə qruplarının yaradılması məqsədəuyğundur.

Dissertasiyanın əsas məzmunu aşağıdakı dərc edilmiş **elmi əsərlərdə** öz əksini tapmışdır:

1. Şagirdlərin təhsildən yayın-masında bullinqin rolu // The XXXIII Scinetific Sympozium. "Dialogue of Sciences and Cultures In The Modern World", – Kyrgyzstan, Bishkek, – December 24, – 2022, – p.117-119.
2. Hüquq tərbiyəsinin məktəblərdə bullinq hallarının azalmasındakı əhəmiyyəti // Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Təhsildə inkişaf mərhələləri: rəqəmsallaşdırma və gələcək perspektivlər" mövzusunda I respublika elmi konfransının materialları. – Naxçıvan: – 04-05 may, – 2023, – s.178-181.
3. Ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılmasında sinif rəhbərlərinin rolu // "Ümumtəhsilin dövlət standartları və məktəb təcrübəsi" mövzusunda respublika elmi-praktik konfransının materialları, – Naxçıvan: – 31 may, – 2023, – s.322-323.

4. Ümumtəhsil məktəblərində bullinq halları və onun aradan qaldırılması probleminin ümumpedaqoji məsələləri // – Bakı: ARTİ-nin Elmi əsərləri, – 2024. № 2, – s. 264-269.
5. Bullinqin yaranmasına səbəb olan amillər // – Bakı: BQU-nun Elmi əsərləri, – 2024. № 2, – s. 155-158.
6. Bullying in primary classes and ways to combat it // Journal of preschool and primary education, – 2024. No. 4, – s. 55-67.
7. Ümumtəhsil məktəblərində bullinq hallarının aradan qaldırılması yolları // Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə və Yaşıl dünya naminə həmrəylik ilinə həsr olunmuş "Ümumi təhsilin dövlət standartları və məktəb təcrübəsi" mövzusunda respublika elmi konfransının materialları, – Naxçıvan: – 24 may, – 2024, – s.223-224.
8. Bullinqə qarşı ailə və məktəb birliyi: Effektiv pedaqoji strategiyalar // Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 80 illiyi ilə əlaqədar "Humanitar və ictimai elmlər yeni tarixi mərhələ müstəvisində" mövzusunda respublika elmi konfransının materialları. – Bakı: – 19–20 dekabr, – 2024, – s.87-90.
9. Bullinq və məktəbdən yayınma halları: pedaqoji baxış və həll imkanları // – Bakı: BSU-nun Humanitar Elmlərin Öyrənilməsinin Aktual Problemləri: Elmi məqalələr məcmuəsi, – 2025. № 2, – s.353-357.
10. Məktəb mühitində bullinqin pedaqoji analizi və profilaktik tədbirlər // – Bakı: BQU-nun Elmi əsərləri, – 2025. №2, – s.121-125.
11. Tərbiyənin nikbinlik prinsipinin bullinqin qarşısının alınmasındakı pedaqoji imkanları // – Naxçıvan: NDU-nin Elmi əsərləri, – 2025. №3, – s. 79-83.
12. Yeniyetməlik dövründə bullinq hallarının pedaqoji təhlili və profilaktikası // – Bakı: ARTİ-nin Elmi əsərləri, – 2025. № 6, – s. 294-299.
13. Особенности технологий педагогической работы по предотвращению буллинга в образовательных учреждениях // Известия Балтийской Государственной Академии

Рыбопромыслового Флота: Психолого-педагогические науки, – 2025. – с. 205-211.
14. Təhsildə səssiz təhlükə: Bullinqin pedaqoji perspek-tivdən analizi və həlli üçün pedaqoji yanaşmalar // 7th İnternationa Bekhtiyar Vahabzade Turkish World Language, History, Culture and Literature Congress (Bekhtiyar Vahabzade: patriotism and nationalism), – 19-22 iyun, – 2025, – s.63-68.
15. V-IX siniflərdə müəllimlərin bullinqi tanıması və pedaqoji müdaxilə // Gənc doktorantların "Təhsil, tədqiqat və innovasi-yanın vəhdəti" mövzusunda VII Respublika elmi konfransının materialları. – Naxçıvan: – 24-25 aprel, – 2025, – s.193-194.
16. Peculiarities of pedagogical technologies in work on prevention of bullying in educational organizations // GFTIS 2025. Глобальный научный форум трансдисциплинарных исследований и отраслевой синергии, – Бухара, Узбекистан: – 19 июня, – 2025, – с.128-131.
17. Кибербуллинг как феномен цифровой коммуникации: филологический анализ и педагогические подходы в образовательной среде // "Диалог культур" культурно-образовательный проект «Образование и диалог культур: традиции и современность». Сборник материалов I Международной (XI Всероссийской) научно-практической конференции, – Набережные Челны: – 27 ноября, – 2025, – s.721-727
18. Влияние кибербуллинга на образовательную среду и стратегии педагогического вмешательства в контексте цифрового насилия // Учреждение Образования «Гродненский Государственный Университет Имени Янки Купалы». Совершенствование системы подготовки кадров в высшем учебном заведении: Инновационность и устойчивость. – Гродно: – 10 ноября, – 2025, – s.168-172.
19. Роль совместной деятельности педагога и ученика в противодействии буллингу. Интеграция естественно-научного и гуманитарного знания в исследованиях проблем образования // Сборник материалов Всероссийской очно-

заочной научно-практической конференции с международным участием. – Горловка, – 29 ноября, – 2025, – с.38-39

20. Проблема буллинга среди подростков в Азербайджане: педагогический эксперимент и его результаты. Modern humanities success / успехи гуманитарных наук, – 2026. №5, – с. 304-310.

Dissertasiyanın müdafiəsi 29 oktyabr 2026-cı il tarixdə saat 14<sup>00</sup> da Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1096, Bakı şəhəri, Məshəti Gəncəvi küçəsi, 41 (Neftçilər kampusu)

Dissertasiya ilə Xəzər Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası (https://www.khazar.org) Xəzər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 sentyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.09.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 38525 işarə

Tiraj: 100 nüsxə